# Türk birliyi ideyası yeni hədəflərə doğru...

*(Beynəlxalq Türk Dünyası Simpoziumundan qeydlər)*

**Ötən həftə Türkiyənin Ərzincan şəhərində keçirilmiş Beynəlxalq Türk Dünyası Simpoziumu işini başa vursa da, bu beynəlxalq türkoloji məclisin iştirakçılarının bitib-tükənməyən təəssüratı, gündəmə gətirdiyi önəmli mövzular daha geniş dairəni əhatə edir.**

Xatırladaq ki, Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının sədri, qardaş Türkiyənin keçmiş Baş naziri Binəli Yıldırımın himayəsi, Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı və Ərzincan Binəli Yıldırım Universitetinin evsahibliyi ilə keçirilmiş simpozium iştirakçı coğrafiyasına, Türk birliyi ideyasının dərinləşməsinə töhfəsi ilə beynəlxalq aləmdə diqqət mərkəzində oldu, böyük maraq doğurdu. Beynəlxalq tədbirin açılış mərasimində səslənən Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın təbrik məktubunda bu toplantının məram və hədəfi, tarixi önəmi yüksək səviyyədə dəyərləndirildi.

Oktyabrın 9-da başlayan simpoziumda 43 ölkədən dəvət olunmuş 800-ə yaxın nümayəndənin – Türk dünyasının tanınmış alimlərinin, nüfuzlu ağsaqqalların, nazirlərin, millət vəkillərinin və digər rəsmi şəxslərin iştirakı Türk birliyinin müasir dünyada yüksələn mövqeyinə bəslənən ümidlərin göstəricisi idi. Türkdilli Dövlətlər Təşkilatına (TDT) daxil olan 7 Türk dövlətinin bayraqları ilə bəzədilmiş Ərzincan Universitetinin modern görkəmi bu təmtərağı bir daha tamamlayırdı.

Bu möhtəşəm görüntülərdən sonra ilk ağlıma gələn bu oldu ki, 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultayda irəli sürülən layihələr çox keçmədən böyük güclər, düşmən dairələr tərəfindən əngəllənmişdi. Sonrakı illərdə 100-dən çox qurultay iştirakçısının – say-seçmə alim və mütəfəkkirin həbsi və fiziki məhvi ilə pərən-pərən salınan Türk dünyası bir əsr özünə gələ bilməmişdi. Nəhayət ki, Böyük Türk dünyasının minilliklərdən gələn tarixinin və mənəvi birliyinin yeni təntənəsini Ərzincan simpoziumunda görə bildik.








## Türk birliyindən mesajlar

Türk Dünyası Ağsaqqallar Şurasının sədri, Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini Binəli Yıldırımın toplantıdakı çıxışında səslənən strateji önəmli mesajlar müzakirələrə güclü impuls verdi, qəbul olunan qərarlarda da əksini tapdı. Türk Dövlətləri Təşkilatı üzv ölkələrin mövcud olduğu coğrafiyada rifahı yüksəltmək, nəqliyyat infrastrukturunu genişləndirmək, ortaq mədəniyyətləri yaşatmaq və müdafiə imkanlarını bir-biri ilə bölüşmək məqsədi daşıyır. Bu təşkilatın məqsədi başqalarını qorxutmaq deyil, birlik ölkələrinin heç kimdən qorxmadığını göstərməkdir.

Daha vacib bir məqam isə Türk dövlətləri arasında əlaqələrin gücləndirilməsidir. Çıxışında İstanbul Zirvəsindən sonra türkdilli ölkələrin yeni dövrə qədəm qoyduğunu, ümumi ticarət həcminin 700 milyard ABŞ dollarına çatdığını bildirən Binəli Yıldırım, bunun çox az bir hissəsinin – 18 milyard dollarının bu ölkələr arasında olduğunu bildirdi.

Quzey Kipr Türk Cümhuriyyətinin Prezidenti Ərsin Tatar Türkiyənin hər zaman Kipr türk xalqının yanında olduğuna diqqət çəkdi. O bildirdi ki, xalqlarımızın mənşəyi, qəlbləri və tarixləri bir olub və gələcəkdə bir olmaq üçün mübarizə aparılır: "Çox haqsızlıqlarla üzləşdik, lakin birlik və həmrəylik içində müqavimət göstərə bildik. Qəlbimizdə və arzularımızdakı ürək bağları bizi birləşdirir, illər sonra da olsa biz bir araya gələ bildik və onun gücü ilə bütün dünyaya səsimizi çatdırırıq".

Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdat Amreyev isə bu qurumun yaradılması ilə Türk dövlətləri ailəsinin daha da gücləndiyini söylədi. O bildirdi ki, Türk dünyasının gücü birlikdədir və qarşıdan gələn zirvə toplantıları birgə hədəflərimiz baxımından olduqca əhəmiyyətlidir: "Bu gün tarixdə ilk dəfə Türk dövlətlərinin vahid şəkildə hərəkət etdiyini görməkdəyik. İndi Türk dünyası bir reallıqdır. Biz birik, daha güclüyük və bu, yeni paradiqmadır". Türk dünyasının da bu təlatümlü dünyada son dərəcə çətin sınaq dövrü ilə üzləşdiyini vurğulayan Amreyev, bu bəlaların türk dünyasını daha çox həmrəylik, inteqrasiya və daha çox birlik uğrunda mübarizəyə səfərbər etdiyini bildirdi.

## Türk birliyi və Azərbaycan

Bu nüfuzlu elmi toplantıda Azərbaycanı Milli Məclisin deputatları, akademiklər, elm adamları olmaqla, ümumilikdə, 35-ə yaxın nümayəndədən ibarət heyət təmsil edirdi. Ölkəmizin sabiq baş naziri, tanınmış ictimai-siyasi xadim, diplomat Həsən Həsənov, AYB sədri, Xalq yazıçısı Anar, akademiklər İsa Həbibbəyli, Teymur Kərimli, Nizami Cəfərov, İsmayıl Hacıyev, Milli Məclisin deputatı Əziz Ələkbərli, professorlar Rüfət Rüstəmov, Nadir Məmmədli, Ramiz Əskər, Vaqif Sultanlı, Qulu Məhərrəmli, ziyalılardan Akif Aşırlı, Məti Osmanoğlu və digər soydaşlarımızın qatıldıqları simpozium Türk dünyasının mənəvi-siyasi birliyinə doğru yeni addımıdır.

Türkdilli dövlətlərdə böyük ruh yüksəkliyinə səbəb olan Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı şanlı Zəfər simpoziumda bütün Türk dünyasının qələbəsi, həm də Cənubi Qafqazda yeni bir dövrün başlanğıcı kimi qiymətləndirildi. Azərbaycan nümayəndə heyətinin üzvləri ölkəmizin milli-mənəvi dəyərləri, xalqımızın ümumtürk birliyinə önəmli töhfələri, Qarabağ zəfəri ilə bağlı çoxsaylı məruzələrlə çıxış etdilər. Toplantının Türk birliyi ölkələrindən və türkdilli toplumlardan olan təmsilçiləri də çıxışlarında və müzakirələrdə Azərbaycan həqiqətlərinə dəstəklərini ifadə etdilər, Qarabağ zəfərinin tarixi dəyərini fəxrlə vurğuladılar.

"Türk dünyasının qlobal dəyişimi: Türkiyə–Azərbaycan–Türküstan hövzəsində dünya sistemli təhlil", "Şuşa Bəyannaməsi"ndən sonra meydana gələn geosiyasi tarazlığın türk dünyasına təsiri və perspektivləri", "Türkiyənin İstiqlal müharibəsinin Azərbaycan mətbuatında əksi", "Qarabağ Zəfəri və bunun türk dünyasına təsiri", "Azərbaycan milli mətbuatının təşəkkülü və Həsən bəy Zərdabi fenomeni" kimi çoxsaylı mövzularda çıxışlar böyük maraqla qarşılandı, geniş müzakirə mövzusu oldu. Bu sıraya Azərbaycan elm adamlarının "Qarabağ Zəfəri və Azərbaycan Ordusunun Tarixi Qələbəsi Türkiyə mətbuatında", "Qarabağ Zəfəri və Qars–İğdır–Naxçıvan dəmir yolunun əhəmiyyəti", "Zəngəzur dəhlizi və onun strateji əhəmiyyəti", "Xocalı soyqırımı", "Azərbaycan bəstəkarlarının yaradıcılığında muğamın rəngləri", "Əhməd Ağaoğlu", "Üzeyir Hacıbəyli", "Hüseyn Cavid", "Həsən Bəy Zərdabi" kimi çoxsaylı məruzələri də əlavə etmək olar.

**Simpoziumun ev sahibi, Ərzincan Binəli Yıldırım Universitetinin rektoru Akın Levent qəzetimizə müsahibəsində azərbaycanlıların simpoziuma qatqılarını dəyərləndirərək dedi:**

– Azərbaycan Türk dünyasının yeni birliyinin təməllərini qoyan ölkələrdəndir– tarixən də belə olub, bu gün də belədir. Türk dünyası Qarabağ zəfəri ilə yenidən canlandı. Türk Dövlətləri Təşkilatı və ya keçmiş adı ilə desək, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası 3 oktyabr 2009-cu ildə Naxçıvanda imzalanan müqavilə ilə qurulmuş beynəlxalq təşkilatdır. Bundan da xeyli əvvəl Azərbaycanın ümummilli lideri Heydər Əliyev tərəfindən gündəmə gələn "Bir millət, iki dövlət" formulu indi daha geniş bir çərçivədə – "Bir millət–yeddi dövlət" anlamına yol alıb. Azərbaycan ziyalılarının tədbirdəki fəallığı məclisə xüsusi əhval gətirdi.

## İştirakçılar nə söylədilər...

**Təbii ki, iştirakçıların da simpozium təəssüratları unudulmazdır. Onlar simpoziumdan gözləntilərinin artıqlaması ilə doğrulduğunu söylədilər:**

Hulusi Kılıç, Türkiyənin Azərbaycandakı sabiq səfiri:

–Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımın rəhbərliyi ilə keçirilən tədbirin əhəmiyyəti çox böyükdür. 2009-cu il oktyabrın 3-də Türkdilli ölkələrin dövlət başçılarının Naxçıvanda keçirilən IX Zirvə toplantısında imzalanan Naxçıvan sazişi Türk dünyasının qapılarını açdı. Türk Şurasının Türk Dövlətləri Təşkilatına çevrilməsi, sıradan bir dəyşiklik deyil. Bu Türk dünyasının varlığını bütün dünyaya tanıtmaq mesajı idi. Beynəlxalq münasibətlərdə önəm daşıyan siyasi iradə Azərbaycanın 44 günlük Vətən müharibəsindəki Qələbəsi ilə təsdiq edildi. Dünya gücümüzü gördü. Türk dünyasında böyük canlanma yaradan bu tarixi zəfərin təntənəsinin davamını Ərzincanda görməkdəyik.

**Rüfət Rüstəmov, BDU-nun professoru:**

– Qarabağ zəfəri ilə canlanan Türk dünyası indi tarixin önəmli bir dövrünü yaşamaqdadır. Dünyanın qədim və böyük xalqlarından olan türk milləti birliyə nail olarsa, qlobal problemlərin həllinə təsiri və töhfəsi daha çox olar. Bu kontekstdə türk xalqları qarşılarındakı maneələri aşaraq ortaq fikrə gəlməlidirlər. "Ortaq ünsiyyət dili" Türk dünyasının güclərini birləşdirməsi üçün prioritet məsələləri arasında ilk sırada gəlir. Bu səbəbdən ortaq əlifba, ortaq ədəbiyyat, ortaq tarix məsələləri tez bir zamanda həll olunmalıdır.

**Zarkynbike Suleimenova, Qazaxıstan, professor:**

– Elmi toplantıda Türk Dövlətləri Təşkilatının 2040-cı ilədək olan hədəfləri baxımından ortaq dəyərə əsaslanan səmərəli təklif və layihələrin həyata keçirilməsi üzərində iş aparılması planlaşdırıldı. Bu planın həyata keçirilməsi ilə Türk dünyasındakı işgüzar əməkdaşlıq möhkəmlənəcək və dərinləşəcəkdir.

**Babək Cavanşir, Güney Azərbaycan, araşdırmaçı:**

– Türk dünyasının yüzlərlə dəyərli elm adamı Anadolunun tarixi şəhəri olan Ərzincanda bir araya gəldi. Simpozium beynəlxalq türkoloji bir məclis kimi keçdi. Başlıca hədəfimiz dünyanın qlobal problemlərinin həllinə töhfə vermək üçün qardaş və qohum xalqlarla ortaqlıqlar qurmaqdır.

**Əli Əsgər, Türkiyə, professor:** Azərbaycanın 44 günlük Vətən müharibəsindəki Qələbəsi və ölkələrimizin imzaladığı Şuşa Bəyannaməsi təkcə Türkiyə və Azərbaycan əlaqələrinin inkişafına deyil, bütün Türk dünyasında əməkdaşlığın inkişafına təkan oldu. Yaxın keçmişimizdən gələn bu proseslər gələcəkdə də sağlam xətt üzrə inkişaf edəcək. Ərzincan simpoziumunda da əsasən, elmi-siyasi, humanitar və mədəni əlaqələr istiqamətində konkret addımlar atıldığını müşahidə etdik. Türk respublikalarında və dünyanın dörd bir tərəfində yaşayan türkdilli xalqların nümayəndələri, təkcə elm adamları deyil, eyni zamanda, dövlət və qeyri-hökumət təşkilatlarından olan soydaşlarımız, Türk dünyası ağsaqqalları bu tədbirə qatılmışdılar.

**Qulu Məhərrəmli, Azərbaycan, professor:**

– Türk dövlətləri, eləcə də türkdilli xalqlar arasında böyük bir oyanış var. Türk Dövlətləri Təşkilatının yaradılması böyük bir hadisədir. Bu cür tədbirlərin keçirilməsi isə bu birliyin sözdə deyil, artıq əməldə də icra olunduğunu göstərir. Ərzincanda böyük uğurla başa çatan türkoloji simpozium elmi, ictimai, siyasi, mədəni və humanitar əlaqələrin genişlənməsinə kömək edəcək. Demək olar ki, bu tədbirdə Türkiyədən sonra Azərbaycan aparıcı qüvvədir.

**Akif Aşırlı, Azərbaycan, Əməkdar jurnalist:**

–Türk dövlətlərinin birliyi önəmli hadisədir. Bölgədə sülhün, əmin-amanlığın qurulması, əməkdaşlığın genişlənməsi çoxdankı arzularımızın gerçəkləşməsidir. Xalqlarımız arasında tarixi əlaqənin genişlənməsində belə tədbirlərin böyük dəyəri var. Açıq danışaq, xalqlarımız yüz ildir ki, bu birlik uğrunda mübarizədə idi, çoxsaylı təcavüzlər, xəyanətlər davamlı olaraq ciddi maneələr yaratmışdı. Bu gün də pusquda duranlar az deyil. Amma bu bizləri qorxutmur, əksinə, daha da səfərbər olmağa tətikləyir. Mən Ərzincan tədbirində bu böyük ruhu gördüm. Əmin olmaq istəyirəm ki, bu ruh Türk dünyasının bir araya gəlməsində önəmli rol oynayacaq.



## Və nəhayət...

Beynəlxalq məclisin təşkili kimi ağır və məsuliyyətli işin uğurla başa çatmasında önəmli payı olanlardan da danışmaq lazım gəlir. Bu sırada Ərzincan Universitetinin professoru Əbdülqadir Gülün, Azərbaycandan İlhamə Qəsəbovanın adlarını çəkməmək mümkün deyil. Amma **Ərzincan Universitetinin professoru Əli Kafkasyalının** xidmətləri xüsusi qeyd edilməlidir. Bütün şüurlu həyatını Türk dünyasının birliyi ideyasına həsr edən Əli Kafkasyalı Azərbaycanda yaxından tanınan elm adamıdır. Türkiyənin Qars vilayətində doğulan, uzun illər Qars, Ərzurum, Rizə, Diyarbəkir vilayətlərində müəllimlik edən, Türkiyə Təhsil Nazirliyində çalışan Əli bəy Ankara Universitetinin məzunudur.

Əli bəyin fəaliyyətinin önəmli bir hissəsi də Azərbaycanla bağlı olmuşdur. Magistr və doktorluq təhsilini Bakı Dövlət Universitetində tamamlayan professor "Mikayıl Azaflının həyatı, sənəti və əsərləri" adlı monoqrafiyanın müəllifidir. Bu günlərdə Türkiyənin "Bəngü" nəşriyyatı onun "Səməd Vurğun: bir milli şairə dair" 490 səhifəlik əsərini nəşr etmişdir.

Türk dünyası məhz bu cür insanların sayəsində dünyanın yeni həqiqətidir və 30 ildən artıqdır ki, həyatın bütün sahələrində əməkdaşlıq imkanlarını davam etdirir, tarixin sınaq məqamlarında təkcə öz müqəddəratlarının həlli yolunda yox, həm də bütün regionda sabitliyin və əmin-amanlığın təminatında xüsusi rolu olan yeni qüdrətli birlik qururlar. Uğurlu, xeyirli olsun deyirik və Ərzincanda baş tutan Beynəlxalq Türk Dünyası Simpoziumunun da gələcək nəsillər üçün gözəl bir nümunə olacağına, həm əhatə dairəsinə, həm siyasi çəkisinə görə türk birliyi tariximizin yeni səhifəsi olacağına inanırıq.

**Namiq ƏHMƏDOV,**
**"Xalq qəzeti"**

**İstanbul – Ərzincan – Bakı**